№ 21-22 (805) 30 noyabr 2024-cü il Qəzet 1991-ci ildən nəşr olunur www.health.gov.az

# TİBB qəzeti

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi



Naftalanda tibbi xidmətin təşkili Nazirlər Kabinetinin sənədində əks olunub

2



"Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısı"nda dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin QƏRARI

2



Yekdil qərarla Azərbaycan 2024-2026-cı illər üçün ATACH-ın həmsədri seçilib

5

## Leyla Əliyeva Milli Hematologiya və Transfuziologiya Mərkəzində olub



Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva Səhiyyə Nazirliyi Milli Hematologiya və Transfuziologiya Mərkəzini ziyarət edib.

2




## COP29 çərçivəsində IDEA və "Clean Air Fund" tərəfindən panel müzakirələr təşkil olunub

IDEA (Ətraf Mühitin Mühafizəsi Naminə Beynəlxalq Dialoq) İctimai Birliyi və "Clean Air Fund" (CAF) təşkilatının tərəfdaşlığı ilə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində Azərbaycan pavilyonunda "Təmiz havanın uşaq və yeni doğulan körpələrin sağlamlığı üçün əhəmiyyəti" mövzusunda panel müzakirəsi təşkil edilib.

Səh. 7

## Azərbaycanın səhiyyə naziri COP29 çərçivəsində keçirilən səhiyyə tədbirində çıxış edib



BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində Bakıda «Səhiyyə və iqlim dəyişikliyi ilə bağlı yüksək səviyyəli paralel tədbir» adlı panel sessiya keçirilib.

Səh. 3

## Xankəndi əhalisi üçün kardioloji müayinələr və Qarabağ Universitetində maarifləndirmə aksiyası təşkil edilib



9

### *Aforizm*

*Həyatı dərk edən daha tələsmir.*

*Ömər Xəyyam*



# Leyla Əliyeva Milli Hematologiya və Transfuziologiya Mərkəzində olub







Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva Səhiyyə Nazirliyi Milli Hematologiya və Transfuziologiya Mərkəzini ziyarət edib.

Fondun vitse-prezidenti mərkəzdə müalicə alan uşaqlara baş çəkib, onların müalicəsinin gedişi ilə maraqlanıb.




# Naftalanda tibbi xidmətin təşkili Nazirlər Kabinetinin sənədində əks olunub

**Baş nazir Əli Əsədov "Naftalan" Kurortu haqqında Əsasnamə"nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarını imzalayıb.**

Sənəddə bildirilir ki, "Sağlamlıq turizminin inkişafında Naftalan neftinin rolunun artırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 28 sentyabr tarixli 308 nömrəli Sərəncamının 1.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Nazirlər Kabineti "Naftalan" Kurortu haqqında Əsasnamə" təsdiq edib.

Əsasnamədə bildirilir ki, "Naftalan" kurortu müalicəvi Naftalan neftinə malik olan, müalicə-sağlamlıq müəssisələri, qurğuları və turizm infrastrukturu obyektləri yerləşən xüsusi mühafizə olunan təbiət ərazisidir. Kurortun ərazisində Naftalan şəhərində yerləşən mənbələrdən çıxarılan Naftalan nefti ilə müalicə, profilaktika, diaqnostika və digər tibbi xidmətlər (tibbi turizm) və müalicə-sağlamlaşdırma yerlərindən istifadə etməklə müalicə-sağlamlaşdırma xidmətləri göstərilir.

Qeyd olunur ki, kurortun təşkili və ləğvi Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Səhiyyə Nazirliyinin, Dövlət Turizm Agentliyinin, habelə Naftalan Şəhər İcra Hakimiyyətinin rəy və təklifləri nəzərə alınmaqla Nazirlər Kabineti tərəfindən həyata keçirilir.

Kurortun öyrənilməsi, istifadəsi, inkişafı sahəsində fəaliyyətin əlaqələndirilməsini Səhiyyə Nazirliyi, mühafizəsi sahəsində isə Ekologiya və Təbii Sərvətlər Nazirliyi həyata keçirir.

Səhiyyə Nazirliyi sanatoriya-kurort müəssisələrində müalicə-profilaktika işinin təşkilinə nəzarət edir, elmi-metodik və konsultativ yardım göstərir.

Əsasnamənin "Kurortun inkişafı və tikinti işlərinin aparılması" bölməsi müvafiq sahədə məsələləri tənzimləyir.

"Kurortun sanitariya mühafizəsi" adlanan 3-cü bölmədə digər məsələlərlə yanaşı qeyd olunur ki, kurortun sanitariya mühafizə zonasında sanitariya mühafizə qaydalarına riayət olunması üzərində nəzarət Səhiyyə Nazirliyi tərəfindən həyata keçirilir.

"Təbii müalicə ehtiyatlarından istifadə və kurortun abadlaşdırılması" bölməsində vurğulanır ki, müalicəvi Naftalan neftinin istifadəsinə (onun resurslarına müvafiq olaraq və texnoloji istismar sxemi əsasında) və kimyəvi tərkibinə nəzarət səlahiyyətləri daxilində Səhiyyə Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və bələdiyyələr tərəfindən həyata keçirilir.

"Kurortda tibbi xidmətin təşkili" adlanan 5-ci bölmədə bildirilir ki, kurortda müalicə Səhiyyə Nazirliyi tərəfindən təsdiq edilmiş, elmi cəhətdən əsaslandırılmış metodika əsasında həyata keçirilir. Müalicə-sağlamlaşdırma məqsədi ilə müalicəvi Naftalan neftindən istifadə olunması Səhiyyə Nazirliyi tərəfindən təsdiq edilmiş konkret göstəriş və əks-göstərişlərə uyğun həyata keçirilir. İstirahət və müalicə məqsədilə göstərilən xidmətlərdən istifadə edən şəxslərdə yoluxucu və digər xəstəliklər aşkar edildikdə və ya onların sağlamlıq vəziyyətinin kəskin pisləşdiyi hallarda onlar yerli tibb müəssisələrinə hospitalizasiya olunurlar.

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 3 noyabr tarixli 182 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısı"nda dəyişiklik edilməsi haqqında

## *Azərbaycan Respublikası Nazirlər Kabinetinin QƏRARI*

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Respublika Qan Bankı" publik hüquqi şəxsin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 16 iyul tarixli 151 nömrəli Fərmanının 4-cü hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 3 noyabr tarixli 182 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 11, maddə 1064 (Cild I); 2024, № 9, maddə 1051) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

1. I bölmənin 1-1.2-1-1.9-cu bəndləri ləğv edilsin.
2. III bölməyə aşağıdakı məzmunda 6-cı hissə əlavə edilsin:

"6. Respublika Qan Bankı
6.1. Respublika Qan Bankının Gəncə bölməsi
6.2. Respublika Qan Bankının Şəki bölməsi
6.3. Respublika Qan Bankının Quba bölməsi
6.4. Respublika Qan Bankının Sumqayıt bölməsi
6.5. Respublika Qan Bankının Lənkəran bölməsi
6.6. Respublika Qan Bankının Bərdə bölməsi
6.7. Respublika Qan Bankının Şirvan bölməsi
6.8. Respublika Qan Bankının Mingəçevir bölməsi".

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının Baş naziri**
*Bakı şəhəri, 23 noyabr 2024-cü il*

# Səhiyyə Nazirliyinin rəhbərliyi və kollektivi Vətən müharibəsində şəhid olan həkimlərimizin xatirəsini ehtiramla yad ediblər

**8 Noyabr - Zəfər Günü xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən, dövlətimizin nüfuzu və gələcək inkişafı baxımından müstəsna əhəmiyyət kəsb edən gündür. Dünyaya səs salan Zəfərimiz xalqımızın yenilməzliyinin, məğrurluğunun dünyaya təqdimatıdır. Azərbaycanın çoxəsrlik tarixinə qızıl hərflərlə yazılan Qarabağ Zəfəri Müzəffər Ali Baş Komandan İlham Əliyevin qüdrətli sərkərdəliyi, qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı və canı bahasına qazanılıb. Xalqımız və rəşadətli Ordumuz 44 gündə şanlı tarix yazaraq, 30 illik işğala son qoydu, ərazi bütövlüyümüz bərpa olundu. Zəfər Günü Azərbaycan xalqının şanlı tarixinə yazılan qəhrəmanlıq salnaməsidir.**





Böyük Qələbə Gününün 4-cü ildönümü ilə əlaqədar səhiyyə naziri Teymur Musayev, Səhiyyə Nazirliyinin Aparatı və tabeliyindəki qurumların rəhbər şəxsləri İkinci Fəxri Xiyabanda Vətən müharibəsi şəhidlərinin məzarlarını ziyarət ediblər. Ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olan həkim və tibb işçilərinin əziz xatirəsi böyük ehtiramla anılaraq, məzarları üzərinə tər güllər düzülüb.

Qeyd edək ki, 44 günlük Vətən müharibəsində 159 hərbi tibb işçisi müxtəlif dərəcəli bədən xəsarəti alıb. 44 tibb işçisi - 11 həkim, 7 feldşer və 26 tibbi təlimatçı qəhrəmancasına şəhid olub.

Allah bütün şəhidlərimizə rəhmət eləsin, yaralı hərbçilərimizə şəfa versin.

# Azərbaycanın səhiyyə naziri COP29 çərçivəsində keçirilən səhiyyə tədbirində çıxış edib

**BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində Bakıda «Səhiyyə və iqlim dəyişikliyi ilə bağlı yüksək səviyyəli paralel tədbir» adlı panel sessiya keçirilib.**



Tədbirdə Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Adhanom Gebreyesus, Birləşmiş Millətlər Təşkilatının 79-cu sessiyasının sədri Filemon Yanq, Azərbaycanın səhiyyə naziri Teymur Musayev və digər rəsmi şəxslər iştirak ediblər.

Öz çıxışlarında Tedros Adhanom Gebreyesus və Filemon Yanq qlobal tədbirin yüksək səviyyədə təşkil olunduğunu diqqətə çatdırıblar. İlk dəfə olaraq "Vahid Sağlamlıq" yanaşmasının yüksək səviyyəli COP29-un dəyirmi masasının diqqət mərkəzində olacağı vurğulanıb.

Tədbirdə çıxış edən Azərbaycanın səhiyyə naziri Teymur Musayev qeyd edib ki, xəstəliklərin baş verməsini proqnozlaşdırmaq üçün erkən xəbərdarlıq sistemlərinin inkişafı və davamlı səhiyyə sistemlərinin qurulması iqlim dəyişikliyinin təsirlərinin minimuma endirməsi baxımından mühüm əhəmiyyət kəsb edir

Nazirin sözlərinə görə, sağlamlığın təşviqi milli səviyyədə sağlamlıqla bağlı Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunması və daha güclü səhiyyə sistemlərinin qurulması üçün olduqca vacibdir: "Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə təsdiq edilən "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın məqsədlərindən biri də vətəndaşların sağlam həyat tərzinin təmin edilməsidir", - deyə Azərbaycanın səhiyyə naziri vurğulayıb.

# “İqlim dəyişikliyinin sağlamlığa təsirlərinə hazırlıq və onlara cavab olaraq səhiyyə sahəsində kadr potensialının gücləndirilməsi”

## *Səhiyyə Nazirliyi və ÜST-nin birgə təşkilatçılığı ilə bu mövzuda panel müzakirəsi keçirilib*

**BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində “İqlim dəyişikliyinin sağlamlığa təsirlərinə hazırlıq və onlara cavab olaraq səhiyyə sahəsində kadr potensialının gücləndirilməsi” mövzusunda panel müzakirəsi keçirilib. Tədbir Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən təşkil olunub.**

Tədbirdə açılış nitqi ilə çıxış edən Azərbaycanın səhiyyə naziri Teymur Musayev vurğulayıb ki, COP29 çərçivəsində aparılan müzakirələr zamanı müvafiq nəticələr əldə olunub və bu istiqamətdə atılacaq növbəti addımlar müəyyənləşib: “COP29 çox uğurlu, məhsuldardır və şübhəsiz, iqlim dəyişikliyi hərəkatı tarixində öz irsini qoyacaqdır. İlk dəfə olaraq insan inkişafına vahid yanaşma gündəmə gətirilib. İqlim dəyişikliyinin sağlamlığa təsiri müzakirələrin mərkəzinə çevrilib, iqlim və sağlamlıq üçün yeni paradiqma irəli sürülüb”.

Nazirin sözlərinə görə, panel müzakirəsinin əsas məqsədi istənilən səhiyyə sisteminin ən vacib komponenti olan səhiyyə işçi qüvvəsindən istifadə etməklə iqlim dəyişikliyinin sağlamlığa təsirlərini azaltmaq üsullarını müəyyən etməkdir: “Həkimlər, tibb bacıları və tibb texnikləri təkcə səhiyyə işçiləri deyil, həm də sağlam cəmiyyətin sütunlarıdır. Səhiyyə mütəxəssislərinin hazırlanması uzunmüddətli, kifayət qədər investisiya tələb edən bir prosesdir və biz səhiyyə təminatçılarının qlobal çatışmazlığı ilə üzləşirik”.

Teymur Musayev bildirib ki, bir çox inkişaf etməkdə olan ölkələrdə olduğu kimi, Azərbaycanda da əsas problemlərdən biri kənd yerlərində həkim və tibb bacılarının çatışmazlığıdır: “Problem cəmiyyət səviyyəsində, hər hansı effektiv səhiyyə sisteminin əsasını təşkil edən ilkin səhiyyə xidmətində daha çox özünü göstərir”.




Nazirin sözlərinə görə, iqlimə davamlı səhiyyə işçi qüvvəsinin inkişafı bir çox aspektləri, o cümlədən tibbi təhsil islahatı, aspirantura təhsili və ucqar ərazilərdə səhiyyə işçilərini həvəsləndirmək üçün hədəflənən strategiyaları əhatə edir. Buraya həmçinin tibb işçilərini xidmət olunmayan ərazilərdə yaşamağa və işləməyə həvəsləndirmək səyləri də daxildir: “Bu, təkcə strateji planlaşdırma məsələsi deyil, həm də insan hüquqları məsələsidir - insanlar sağlamlıq ehtiyaclarının ödənildiyi təhlükəsiz mühitlərdə yaşamağa layiqdirlər. Nəzərə alsaq ki, iqlim dəyişikliyi davam edir və yaxın gələcəkdə geri çevrilməsi ehtimalı azdır, biz onun sağlamlığa təsirlərinin azaldılmasına üstünlük verməliyik. Əsas fəaliyyətlərə iqlim dəyişikliklərinə davamlı və aşağıkarbonlu səhiyyə sistemlərinin qurulması, yaşıl xəstəxanaların inkişafı və iqlimə davamlı tibb işçi qüvvəsinin yaradılması daxildir. Bunlar davamlı və sağlam gələcəyin vacib komponentləridir”.

Nazir COP29-un gələcək iqlim fəaliyyətinin formalaşdırılması üçün bir platforma olaraq unikal rola malik olduğunu vurğulayıb: “Diqqətçəkən nailiyyətlərdən biri “İqlim və Sağlamlıq üzrə Bakı COP Sədrliklərinin Varislik Koalisiyası"nın yaradılması təşəbbüsüdür. İqlim dəyişikliyi və sağlamlıqla bağlı fəaliyyətin davamlılığının təmin edilməsi sağlamlığın iqlim dəyişikliyi gündəliyinin mərkəzinə uğurla yerləşdirilməsi üçün çox vacibdir. İqlim dəyişikliyi gündəliyi indi səhiyyə gündəmindən ayrılmazdır. Hesab edirəm ki, Bakı Konfransındakı müzakirələr bu hərtərəfli gündəliyin irəliləməsinə güclü təkan verəcək”.

“İqlim şəraitinə davamlı səhiyyə kadr potensialının yaradılması mürəkkəb və çoxşaxəli problemdir. Bunun üçün intensiv təlim, səhiyyə işçilərinə sosial və iqtisadi dəstək, maariflə ndirmə və digər müxtəlif tədbirlər tələb olunur. Bu məqsədə nail olmaq üçün vaxt və davamlı maliyyəyə ehtiyac duyulur. Bununla belə, milli və beynəlxalq tərəfdaşların əməkdaşlığının qurulması ilə biz xalqımız üçün daha sağlam və dayanıqlı gələcək qurmaqda uğur qazana bilərik”, - deyə Azərbaycan Respublikasının səhiyyə naziri fikrini tamamlayıb.

Panel müzakirəsində həmçinin ÜST-nin ölkə ofisinin rəhbəri Hande Harmancı, Afrika üzrə İqlim Dəyişikliyi, Sağlamlıq və Ətraf Mühit Qrupunun regional rəhbəri Yeremiya Muşoşo, Azərbaycanın səhiyyə nazirinin müavini Nadir Zeynalov, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev, İsrail Səhiyyə Nazirliyi Ətraf Mühit Epidemiologiya Departamentinin müdiri İzabella Karakis, TƏBİB-in İcraçı direktoru Vüqar Qurbanov və digərləri iştirak ediblər.

# COP29 çərçivəsində Azərbaycan və Gürcüstanın səhiyyə nazirləri arasında görüş keçirilib

**BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində Azərbaycan və Gürcüstanın səhiyyə nazirlərinin görüşü baş tutub.**

Öz çıxışında Azərbaycanın səhiyyə naziri Teymur Musayev Azərbaycan və gürcü xalqları arasında mövcud olan tarixi və mədəni əlaqələrin iki ölkə arasında münasibətlərin əsasını təşkil etdiyini vurğulayıb. Nazirin sözlərinə görə, ölkələrimizin ənənəvi dostluq münasibətləri əsrlərə söykənir. Yüksək səviyyəli qarşılıqlı səfərlərin önəmini qeyd edən Teymur Musayev bildirib: “Dövlət başçıları arasındakı dostluq əlaqələri bütün sahələrdə sıx əməkdaşlığın inkişafına və möhkəmlənməsinə əvəzsiz töhfə verir”.




Görüşdə Azərbaycanla Gürcüstan arasında səhiyyə sahəsində də ikitərəfli əlaqələrin inkişafı üçün geniş potensialın olduğu vurğulanıb. Nazirin sözlərinə görə, ölkələrimizin ali tibb mütəxəssislərinin davamlı peşə təhsili sahəsində müasir metodiki və elmi-praktik təcrübə mübadiləsi üçün bütün imkanlar mövcuddur.

COP29-da müzakirə olunan məsələlərin əhəmiyyətini və aktuallığını vurğulayan Teymur Musayev qlobal səhiyyə ictimaiyyətinin iqlim dəyişikliyinin təsirlərinə cavab və qlobal sağlamlıq təhlükəsizliyinin yaxşılaşdırılmasına töhfə verməkdə mühüm rolunu qeyd edib.

Sonda Azərbaycanın səhiyyə naziri ikitərəfli əməkdaşlığın daha da inkişaf edəcəyinə əminliyini ifadə edib.

Öz növbəsində Gürcüstanın İşğal Olunmuş Ərazilərdən Məcburi Köçkün Düşənlərlə İş, Əmək, Səhiyyə və Sosial Müdafiə naziri Mixeil Sarcveladze dövlətlərarası əlaqələrin yüksək səviyyədə olduğunu vurğulayaraq, ölkələrimiz arasında tarixi və ənənəvi dostluq münasibətlərinin mövcudluğunu qeyd edib.

Mixeil Sarcveladze BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının yüksək səviyyədə təşkil olunduğunu diqqətə çatdıraraq, COP29 gündəliyinin formalaşmasında Azərbaycanın xüsusi rolunu vurğulayıb. O həmçinin Azərbaycan Səhiyyə Nazirliyi ilə səmərəli əməkdaşlığın qurulmasında da maraqlı olduqlarını qeyd edib.

Görüşdə səhiyyə sahəsində ixtisaslı kadrların hazırlanması və digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Səhiyyə naziri “Dəyişən iqlim şəraitində dayanıqlığın artırılması: Sağlam gələcəyin təmin edilməsi üçün Azərbaycanın “Vahid Sağlamlıq” yanaşması” mövzusunda tədbirdə çıxış edib

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində “Dəyişən iqlim şəraitində dayanıqlığın artırılması: Sağlam gələcəyin təmin edilməsi üçün Azərbaycanın “Vahid Sağlamlıq” yanaşması” mövzusunda tədbir keçirilib. Tədbir Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) təşkilatçılığı ilə baş tutub.



Tədbirdə çıxış edən Azərbaycanın səhiyyə naziri Teymur Musayev qeyd edib ki, dəyişən iqlim şəraitində davamlılığın artırılması iqlimlə bağlı problemlərə hazırlıq və bərpa qabiliyyətinin artırılmasını tələb edir: “İqlim dəyişikliyi ilə bağlı sağlamlıq problemlərini vaxtında və effektiv şəkildə həll etmək üçün çoxsahəli milli strategiyalar hazırlanmalıdır. Bu strategiyalar əhalinin sağlamlığının qorunmasına, səhiyyə sistemlərinin uyğunlaşmasının təmin edilməsinə və bununla bağlı risklərin minimuma endirilməsinə yönəldilməlidir”.

Nazirin sözlərinə görə, xəstəliklərin baş verməsini proqnozlaşdırmaq üçün erkən xəbərdarlıq sistemlərinin inkişafı və davamlı səhiyyə sistemlərinin qurulması iqlim dəyişikliyinin təsirlərini minimuma endirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir: “İqlimlə bağlı xəstəliklərin potensial yayılmasının qarşısını almaq məqsədilə gücləndirilmiş nəzarət proqramları da vacibdir”.

Teymur Musayev bildirib ki, “Vahid Sağlamlıq” yanaşmasının əhəmiyyəti insanların, heyvanların və ekosistemlərin sağlamlığına diqqət yetirməklə, fərdi fənləri aşan qlobal sağlamlıq problemlərinin həllindədir: “Yeni yaranan yoluxucu xəstəliklər, antimikrob preparatlarına qarşı rezistentlik, qida təhlükəsizliyi, ətraf mühitin sağlamlığı və biomüxtəlifliyin qorunması kimi əsas məsələlər bu vahid yanaşmanın tətbiqinin vacibliyini göstərir”.

Nazir Azərbaycanın çoxsahəli əməkdaşlıq, siyasət, təcrübə və təhsil yolu ilə “Vahid Sağlamlıq” Konsepsiyasının həyata keçirilməsində mühüm irəliləyişlər əldə etdiyini vurğulayıb: “Beynəlxalq tibbi-sanitariya qaydaları çərçivəsində bu istiqamətdə atılan mühüm addımlardan biri də 19 texniki sahəni əhatə edən Birgə Xarici Qiymətləndirmədir. 2023-cü ilin may ayında yerli və sektorlararası beynəlxalq ekspertlərdən ibarət qiymətləndirmə qrupunun iştirak etdiyi məsləhətləşmə prosesi vasitəsilə Azərbaycanın imkanları insan sağlamlığı sektoru da daxil olmaqla 19 istiqamətdə yoxlanılıb. Birgə müzakirələr və ərazilərə səfərlər nəticəsində Beynəlxalq tibbi-sanitariya qaydalarının, “Vahid Sağlamlıq” Konsepsiyasının tətbiqinin təkmilləşdirilməsinə və Azərbaycan səhiyyə sisteminin fövqəladə hallar zamanı dayanıqlılığının gücləndirilməsinə yönələn bütün texniki istiqamətlər üzrə qiymətləndirmələrinə dair prioritet addımlar müəyyən edilib”.

“Səhiyyə Nazirliyi milli fəaliyyətlərin səmərəli əlaqələndirilməsini və dəstəklənməsini təmin etmək məqsədilə dövlət və qeyri-hökumət sektoruna aid olan digər maraqlı tərəflər, eləcə də beynəlxalq təşkilatlarla fəal qarşılıqlı əməkdaşlıq edir. Görünməmiş ekoloji problemlər qarşısında “Vahid Sağlamlıq” yanaşması indi həmişəkindən daha aktualdır. Konsepsiya insan, heyvan və ətraf mühitin sağlamlığının qarşılıqlı əlaqəsini tanıyır. Bu da iqlim dəyişikliyinin həyatımızın hər aspektinə - biomüxtəliflikdən başlayaraq ərzaq təhlükəsizliyi və sağlamlığa təsir edən kompleks yanaşmanı nəzərdən keçirərkən xüsusilə vacibdir. “Vahid Sağlamlıq” yanaşmasının qəbulu sağlamlıq problemlərinə davamlı, əsaslı yanaşmanı təmin edir, eyni zamanda, gələcək qlobal təhdidlərə qarşı dayanıqlılığı təşviq edir”, - deyə Azərbaycan Respublikasının səhiyyə naziri fikrini tamamlayıb.

Öz çıxışlarında kənd təsərrüfatı naziri Məcnun Məmmədov, Milli Məclisin Səhiyyə komitəsinin sədri akademik Əhliman Əmiraslanov, AQTA-nın sədri Qoşqar Təhməzli və Agentliyin sədr müavini Zəkiyyə Mustafayeva, TƏBİB-in icraçı direktoru Vüqar Qurbanov və digərləri COP29-un əhəmiyyətini vurğulayıb və qeyd ediblər ki, qlobal səhiyyə ictimaiyyəti iqlim dəyişikliyinin təsirlərinə cavab və qlobal sağlamlıq təhlükəsizliyinin yaxşılaşdırılmasına töhfə verməkdə mühüm rol oynayır. İqlim dəyişikliyinin insan həyatının müxtəlif aspektlərinə təsir etməsi və dövrümüzün ən aktual problemlərindən biri olması diqqətə çatdırılıb. Bildirilib ki, iqlim dəyişikliyi ekosistemlərə və hava şəraitinə birbaşa təsirindən əlavə, insan sağlamlığı üçün də geniş nəticələrə malikdir. Həmçinin, iqlim dəyişməsinin təsirlərini yumşaltmaq məqsədilə innovasiyalardan, o cümlədən qabaqcıl modelləşdirmə, simulyasiya və süni intellektdən istifadənin məqsədəuyğun olduğu vurğulanıb.

# COP29 çərçivəsində Azərbaycanın səhiyyə naziri ÜST-nin Avropa üzrə regional direktoru ilə görüşüb



**BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası çərçivəsində Azərbaycanın səhiyyə naziri Teymur Musayev Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Avropa üzrə regional direktoru Hans Henri Klüge ilə görüşüb.**

Öz çıxışında səhiyyə naziri Azərbaycanın nüfuzlu səhiyyə qurumları, o cümlədən Ümumdünya Səhiyyə Təşkilatı ilə qarşılıqlı əməkdaşlığa böyük önəm verdiyini diqqətə çatdırıb.

Bakıda keçirilən Qlobal İqlim Konfransının əhəmiyyətini vurğulayan Teymur Musayev Azərbaycanın İqlim və Sağlamlığın qorunması naminə Transformasiya Alyansına (ATACH) rəsmi olaraq qoşulduğunu və iki il ərzində Alyansın həmtəşkilatçısı qismində fəaliyyət göstərəcəyini qeyd edib: “ATACH-nin həmsədri kimi Azərbaycan Respublikası iqlim dəyişikliklərinə davamlı və aşağıkarbonlu səhiyyə sistemlərinin qurulması üçün birgə səyləri təşviq edəcək”.

Sonda Azərbaycanın səhiyyə naziri ikitərəfli əməkdaşlığın daha da inkişaf edəcəyinə əminliyini ifadə edib.

Öz növbəsində Hans Henri Klüge BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının yüksək səviyyədə təşkil olunduğunu qeyd edib: “Azərbaycan hər zaman mühüm beynəlxalq tədbirləri ən yüksək səviyyədə təşkil edir. COP29 da istisna deyil”.

ÜST-nin Avropa üzrə regional direktoru COP29-da müzakirə olunan mövzuların aktuallığını vurğulayıb, Tərəflər Konfransının qlobal ictimaiyyət üçün bir araya gələrək, praktiki həlləri müəyyən etməkdə mühüm fürsət olduğunu qeyd edib.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycanın səhiyyə naziri “TikTok”un vitse-prezidenti ilə görüşüb

**BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində Azərbaycanın səhiyyə naziri Teymur Musayev “TikTok” şirkətinin vitse-prezidenti Helena Lerş ilə görüşüb.**

Görüş zamanı “TikTok” platformasının davamlı olaraq qlobal icma arasında davamlılıq mövzusunda məlumatlılığı artırmaq və iqlim savadlılığını yüksəltmək öhdəliyinə sadiq olduğu qeyd edilib. Bu istiqamətdə üzərinə götürdüyü öhdəliklərin bir hissəsi olaraq və Azərbaycanda keçirilən COP29 konfransı çərçivəsində TikTok #ClimateAction 2024 kampaniyasına start verib.

Həmçinin Azərbaycan Səhiyyə Nazirliyi ilə səmərəli əməkdaşlığın qurulmasında da maraq ifadə olunub.

# «İqlim və Sağlamlıq üzrə Bakı COP Sədrliklərinin Varislik Koalisiyası»nın yaradılması haqqında Niyyət Məktubu imzalanıb

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) tematik günlər təşkil olunub. Belə ki, 18 noyabr uşaq və gənclər, sağlamlıq və təhsilə həsr olunan İnsan İnkişafı Günü kimi müəyyənləşib. Bununla əlaqədar iqlim və sağlamlıq mövzusunda yüksək səviyyəli dəyirmi masa keçirilib.

Tədbir zamanı "İqlim və Sağlamlıq üzrə Bakı COP Sədrliklərinin Varislik Koalisiyası"nın yaradılması haqqında Niyyət Məktubu imzalanıb. Koalisiyanın tərkibinə Azərbaycan, Böyük Britaniya, Misir, Birləşmiş Ərəb Əmirlikləri və Braziliya daxil olub.

Tədbirdə çıxış edən Azərbaycanın səhiyyə naziri Teymur Musayev vurğulayıb ki, COP29-a ev sahibliyi edən ölkə kimi Azərbaycan iqlim və sağlamlıq arasında əlaqənin təşviqinə sadiqdir: "İqlim dəyişikliyinin sağlamlığa təsiri artıq bütün dünyada hiss olunur. Bu təsirlər təkcə insanların rifahını deyil, həm də xüsusilə aşağı və orta gəlirli ölkələrdə səhiyyə sistemlərinin davamlılığını təhdid edir".

Nazirin sözlərinə görə, Koalisiya beynəlxalq əməkdaşlığın yüksək səviyyəsini nümayiş etdirir: "Bu gün biz bu çağırışlarla mübarizə aparmaq naminə kollektiv öhdəliyimizdə irəliyə doğru mühüm bir addım atırıq. Ümumdünya Səhiyyə Təşkilatı ilə birlikdə biz iqlim dəyişikliyi və sağlamlığın qlobal gündəmin mərkəzində qalmasını təmin etməyə sadiqik".





Teymur Musayev çıxışında əvvəlki COP-lar çərçivəsində nəzərəçarpacaq nəticələrin əldə edildiyini vurğulayıb: "COP26-da İqlim və Sağlamlığın qorunması naminə Transformasiya Alyansının (ATACH) yaradılması, COP27-də İqlim Fəaliyyəti və Qidalanma Təşəbbüsü (I-CAN), eləcə də Sağlamlıq üçün İqlim və Sağlamlığın Maliyyələşdirilməsi üzrə COP28-in Rəhbər prinsipləri kimi əvvəlki təşəbbüslər mühüm və möhkəm təməl qoyub. Bununla belə, biz əldə edilən nailiyyətlərlə kifayətlənməməliyik".

Nazir yeni koalisiyanın bu səyləri gücləndirmək, onların təsirini artırmaq, hökumətlər, beynəlxalq təşkilatlar, vətəndaş cəmiyyəti, akademik və özəl sektordan maraqlı tərəfləri bir araya gətirmək üçün müvafiq platformanın yaradılması zərurətini bildirib: "Bu koalisiya sadəcə dialoq naminə yaradılmayıb. Niyyət Məktubunu imzalamaqla, biz planetimizin iqlim və sağlamlıq siyasətlərinin təcrid olunmadığı, eyni zamanda, idarəetmə və inkişafın bütün aspektlərinə inteqrasiya olunduğu bir ortaq baxışa sadiqik."

"Biz iqlim dəyişikliyinin bütün dünyada sağlamlığa necə təsir etdiyini görürük. Temperaturun tənəffüs xəstəliklərini kəskinləşdirən dərəcədə yüksəlməsindən daha tez-tez baş verən ekstremal hava hadisələrinə qədər insanların sağlamlığı təhlükə altındadır. Bununla belə, transformasiya üçün də fürsət görürük. Həm sağlamlıq, həm də iqlim fəaliyyətinə üstünlük verməklə, biz insanların həyatını qoruya, daha güclü səhiyyə sistemləri qura və davamlı inkişafa töhfə verə bilərik", - deyə Azərbaycanın səhiyyə naziri fikrini tamamlayıb.

**COP29 çərçivəsində iqlim dəyişikliyinin sağlamlığa təsirinə dair panel müzakirələr keçirilib.**

Tədbirdə çıxış edən Azərbaycanın ekologiya və təbii sərvətlər naziri, COP29-un prezidenti Muxtar Babayev Tərəflər Konfransının iqlim həmrəyliyinin yaranmasına öz töhfəsini verəcəyini vurğulayıb. Muxtar Babayev COP29-un bütün iştirakçı ölkələrini iqlim dəyişikliyinin mənfi hallarının aradan qaldırılmasına yönələn səylərini daha da gücləndirməyə çağırıb.

Öz növbəsində Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru doktor Tedros Adhanom Gebreyesus BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının qlobal ictimaiyyət üçün bir araya gələrək praktiki həlləri müəyyən etmək üçün mühüm fürsət olduğunu vurğulayıb.

Panel sessiyada çıxış edən Azərbaycanın səhiyyə naziri Teymur Musayev vurğulayıb ki, iqlim dəyişikliyinin vətəndaşların sağlamlığına və ölkələrin iqtisadiyyatına təsiri çoxşaxəlidir və getdikcə daha çox narahatlıq doğurur.

Nazirin sözlərinə görə, son onilliklər ərzində daşqın və quraqlıqlar kimi ekstremal hava hadisələrinin tezliyi artıb: "İstiliklə bağlı ölümlərin təxminən üçdə biri artıq iqlim dəyişikliyi ilə bağlıdır. Eyni zamanda, iqlim dəyişikliyi nəticəsində baş verən ekstremal hava fəlakətlərinin sayı son 50 ildə beş dəfə artıb".

Ekstremal hava hadisələrinin yoluxucu xəstəliklərin yayılması üçün ideal şərait yaratdığını qeyd edən nazir deyib: "İqlim dəyişikliyinin risklərini və mümkün təsirlərini minimuma endirən milli siyasətin qəbulu sağlamlığa təsirləri və onların iqtisadi nəticələrini məhdudlaşdırmağa kömək edə bilər".

"Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurla bağlı müəyyən etdiyi iqtisadi inkişaf kursunda bu ərazilərin yaşıl enerji zonasına çevrilməsi əsas istiqamətlərdən biri hesab olunur. Məqsəd həmin ərazilərdə yüksək potensiala malik bərpaolunan enerjidən istifadə etməklə o yerləri ekoloji cəhətdən təmiz yaşıl enerji ilə təmin etmək və yaşıl texnologiyaların tətbiqi perspektivlərini araşdıraraq təkliflər formalaşdırmaqdır", - deyə Azərbaycanın səhiyyə naziri fikrini tamamlayıb.

# Yekdil qərarla Azərbaycan 2024-2026-cı illər üçün ATACH-ın həmsədri seçilib



Daha sonra İqlim və Sağlamlığın qorunması naminə Transformasiya Alyansının (ATACH) yeni həmsədri seçilib.

Yekdil qərarla Azərbaycan 2024-2026-cı illər üçün ATACH-ın həmsədri elan olunub.

Tədbirdə çıxış edən Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru doktor Tedros Adhanom Gebreyesus və Azərbaycanın səhiyyə naziri Teymur Musayev qeyd ediblər ki, Azərbaycan Respublikası COP29-un sədri kimi ATACH alyansına qoşulur və 2024-2026-cı illərdə Alyansın həmtəşkilatçısı kimi çıxış edəcək.

COP26-nın səhiyyə gündəliyinə, COP27, COP28, COP29 və 77-ci Ümumdünya Səhiyyə Assambleyası tərəfindən qlobal iqlim və sağlamlıq təşəbbüslərinə əsaslanaraq, ATACH iqlim dəyişikliyi və sağlamlıqla bağlı tədbirləri gücləndirmək üçün mühüm qlobal əməkdaşlıq mexanizmi təqdim edir. Eyni zamanda, Alyansın fəaliyyəti iqlim dəyişikliklərinə davamlı və aşağıkarbonlu səhiyyə sistemlərinin qurulmasına yönəlib.

ATACH alyansına qoşulmaqla Azərbaycan Respublikası dəyişən iqlim şəraitində ictimai sağlamlığın qorunması və təşviqi üçün mühüm əhəmiyyət kəsb edəcək iqlim dəyişikliklərinə davamlı səhiyyə sistemi istiqamətində addımların atılması öhdəliyini öz üzərinə götürüb.

Həmtəşkilatçılar kimi Ümumdünya Səhiyyə Təşkilatı və Azərbaycan Respublikası ATACH vasitəsilə iqlim və sağlamlıqla bağlı fəaliyyət üçün qlobal təkan yaratmaq məqsədilə keçmiş və gələcək COP prezidentləri, eləcə də bütün ATACH üzvləri ilə birgə işləməyə sadiqdirlər.

# COP29 çərçivəsində IDEA və “Clean Air Fund” tərəfindən panel müzakirələr təşkil olunub




IDEA (Ətraf Mühitin Mühafizəsi Naminə Beynəlxalq Dialoq) İctimai Birliyi və “Clean Air Fund” (CAF) təşkilatının tərəfdaşlığı ilə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində Azərbaycan pavilyonunda “Təmiz havanın uşaq və yeni doğulan körpələrin sağlamlığı üçün əhəmiyyəti” mövzusunda panel müzakirəsi təşkil edilib.

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva tədbirdə iştirak edib

Tədbirin açılışında Leyla Əliyeva aparılacaq müzakirələrin uşaqların rifahına verə biləcəyi töhfəni qeyd edib.

Hava çirklənməsi probleminin nəticəsi olaraq hər il milyonlarla insanın həyatını itirdiyini vurğulayan Leyla Əliyeva qeyd edib ki, adıçəkilən problemin aradan qaldırılması üçün qlobal həmrəylik və dayanıqlı texnologiyalardan istifadə əhəmiyyətli rol oynayır.

Sonra Leyla Əliyeva Azərbaycan Respublikası tərəfindən görülən tədbirlər, o cümlədən dayanıqlı ictimai nəqliyyat vasitələri, hibrid və elektroavtomobillərdən istifadənin genişləndirilməsi istiqamətində atılan addımlar barədə tədbir iştirakçılarına məlumat verib.

IDEA İctimai Birliyi tərəfindən həyata keçirilən müxtəlif layihə və tədbirlər barədə də danışan Leyla Əliyeva ötən 13 il ərzində təşkilatın təşəbbüsü ilə 5 milyondan çox ağacın əkildiyini qeyd edib. Bununla bərabər, “Məktəb bağları” layihəsi çərçivəsində Bakı şəhəri və bölgələrdə yerləşən 300 məktəbin həyətində 20 mindən çox ağacın əkildiyi panel müzakirələri iştirakçılarının diqqətinə çatdırılıb.

Qeyd edək ki, tədbirdə həmçinin Azərbaycanın səhiyyə naziri Teymur Musayev, CAF-ın baş icraçı direktoru Jane Burston, BMT-nin Uşaq Fondunun (UNICEF) Sağlam Uşaqlar üçün Sağlam Ətraf Mühit Qlobal Proqramının rəhbəri Abheet Solomon, Botnar Fondunun vitse-prezidenti, “Partnership for Maternal, Newborn & Child Health” təşkilatının İdarə heyətinin üzvü Flavia Bustreo və gənc ətraf mühit fəalı Francisco Vera iştirak ediblər.

# «İş yerində neyromüxtəliflik»

*Bakıda bu mövzuda panel müzakirəsi keçirilib*



Bakıda keçirilmiş “İş yerində neyromüxtəliflik” adlı panel müzakirəsində neyromüxtəlif fərdlərə dəstək üçün inklüziv təcrübələrin tətbiqi, bu sahədə iş təcrübələri və üzləşilən çətinliklər, dəstəkçi iş mühiti yaratmaq üçün praktik addımların atılması və digər mövzular ətrafında geniş fikir mübadiləsi aparılıb.

Tədbirdə Azərbaycanın səhiyyə naziri Teymur Musayev, Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) Fondunun Baş icraçı direktoru Anil Soni, “NEQSOL Holding”in dayanıqlılıq üzrə baş direktoru Kadri Özen və digər rəsmilər iştirak ediblər.

Çıxışçılar neyromüxtəlifliyin, öyrənmə və ünsiyyət pozuntuları da daxil olmaqla, bir çox nevroloji pozuntuları əhatə etdiyini qeyd ediblər. Eyni zamanda, iş yerində neyromüxtəlifliyin dəstəklənməsinin vacibliyi diqqətə çatdırılıb.

Qeyd edilib ki, neyrodivergent insanların dünyanı unikal üsullarla gördüyünü nəzərə alaraq, onlar iş yerində həm fərdi rifaha, həm də peşəkar artıma təsiri olan çətinliklərlə üzləşə bilərlər. Bu baxımdan onlar üçün sensorlu iş məkanları və istirahət zonalarının yaradılması vacibdir.

# COP29 çərçivəsində Ağız Boşluğunun Sağlamlığı və İqlim Dəyişikliyinin təsiri üzrə 3-cü Qlobal Konfrans keçirilib

**BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası çərçivəsində Ağız Boşluğunun Sağlamlığı və İqlim Dəyişikliyinin təsiri üzrə 3-cü Qlobal Konfrans baş tutub.**



Əvvəlcə Azərbaycanın səhiyyə naziri Teymur Musayevin konfrans iştirakçılarına videomüraciəti nümayiş etdirilib.

Nazir videomüraciətində iqlim dəyişikliyinin yaşayış coğrafiyasından asılı olmayaraq, bəşəriyyət üçün real təhlükəyə çevrildiyini qeyd edib: “İqlim dəyişikliyi təkcə böyük iqtisadi itkilərə deyil, həm də insan tələfatına və insanların miqrasiyasına gətirib çıxarır. İqlim dəyişikliyinin sağlamlığa birbaşa və dolayı təsirləri elmi araşdırmaların ən aktual mövzusudur və ilkin nəticələr həyəcan vericidir”.

Azərbaycanın səhiyyə naziri vurğulayıb ki, COP29-da əsas müzakirə mövzusu iqlim dəyişikliyinin nəticələrinə qarşı mübarizənin maliyyələşdirilməsinə həsr olunub: “Ağız Boşluğunun Sağlamlığı və İqlim Dəyişikliyi üzrə 3-cü Qlobal Konfransın tarixi təsadüfən seçilməyib. COP29 tematik günlər ətrafında təşkil edildiyi üçün 18 noyabr uşaq və gənclər, sağlamlıq və təhsilə həsr olunan İnsan İnkişafı Günü kimi müəyyənləşib”.

Nazirin sözlərinə görə, iqlim dəyişikliyi gündəmində sağlamlığın əhəmiyyətini nəzərə alaraq, Azərbaycan sağlamlıq üçün milli və qlobal iqlim fəaliyyəti üçün əsas qlobal əməkdaşlıq platforması olan İqlim və Sağlamlığın qorunması naminə Transformasiya Alyansına (ATACH) qoşulub və bu sahədə 2 il ərzində Alyansın həmtəşkilatçısı qismində fəaliyyət göstərəcək: “Fürsətdən istifadə edərək, bütün COP29 iştirakçı ölkələrini birgə səylərimizi daha da artırmağa, eyni zamanda, iqlim dəyişikliklərinə davamlı və aşağıkarbonlu səhiyyə sistemlərinin qurulmasına yönəlmiş Alyansa qoşulmağa dəvət etmək istərdim”.

Videomüraciətində Teymur Musayev insan sağlamlığının mühüm aspektlərindən birinin də ağız boşluğunun sağlamlığı olduğunu qeyd edib: “İqlim dəyişikliyi qidalanma vərdişlərinin dəyişməsi, azqidalanma, təmiz suya çıxış çətinliyi və digər amillər səbəbindən ağız boşluğunun sağlamlığına ciddi təhlükə yaradır. Bu, səhiyyə resurslarının iqlim dəyişikliyi ilə bağlı sağlamlığa təsirlərə yönəlməsini vacib edir”.

“Prezident İlham Əliyevin Sərəncamı ilə 2024-cü il Azərbaycanda “Yaşıl dünya naminə həmrəylik ili” elan edilib. Qlobal məsələlər müzakirə edilərkən həmrəylik amilinə xüsusi önəm verilməlidir. Gəlin planetimiz və xalqlarımızın gələcəyini xilas etmək üçün səylərimizi birləşdirək”, - deyə Azərbaycan Respublikasının səhiyyə naziri fikrini tamamlayıb.

Tədbirdə çıxış edənlər COP29-un stomatologiya üzrə beynəlxalq mütəxəssislərin bir araya gəlməsi və mürəkkəb çağırışlara hazırlaşması üçün gözəl fürsət olduğunu qeyd ediblər. Bildirilib ki, Konfrans iqlim dəyişikliyinin ağız boşluğunun sağlamlığına və stomatoloji xidmətə təsiri haqqında əsaslı müzakirələr aparmaq üçün müxtəlif ölkələrinin mütəxəssislərini bir araya gətirib.

Ağız Boşluğunun Sağlamlığı və İqlim Dəyişikliyinin təsiri üzrə 3-cü Qlobal Konfrans tematik müzakirələrlə davam edib, tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.



# COP29 çərçivəsində «ATACH Günü» keçirilib

**BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında (COP29) "ATACH Günü" keçirilib.**



Tədbirdə çıxış edən Azərbaycanın səhiyyə naziri Teymur Musayev iqlim dəyişikliyinin qlobal problem və bəşəriyyət üçün real təhlükə kimi dövrümüzün ən çox müzakirə olunan mövzularından biri olduğunu qeyd edib: "Əvvəllər yalnız uzaq gələcəkdə mümkün kimi qəbul edilən problem indi qapımızı "döyür". Quraqlıq, su qıtlığı, anomal istilər və dəniz səviyyəsinin qalxması insanları əsrlər boyu yaşadıqları məkanları tərk etməyə məcbur edir".

Nazirin sözlərinə görə, ölkələrin və ayrı-ayrı şəxslərin üzləşdiyi iqtisadi itkilər əhəmiyyətli olsa da, bu itkilər müəyyən dərəcədə geri qaytarıla bilər: "Bununla belə, qarşısıalınmaz olan iqlim dəyişikliyinin nəticələrinin ən ağır yükünü daşıyanların sağlamlığını və həyatın itirməsidir. Əslində, sağlamlığa təsirlər hazırda müşahidə etdiyimiz iqlim dəyişikliyinin ilk və ən ani təsirlərindən biridir. Bu, açıq şəkildə göstərir ki, iqlim dəyişikliyi ilə bağlı hər hansı müzakirə onun sağlamlığa təsirini nəzərə almadan natamamdır".

Azərbaycanın İqlim və Sağlamlığın qorunması naminə Transformasiya Alyansına (ATACH) rəsmi olaraq qoşulduğu və 2024-2026-cı illər üçün Alyansın həmtəşkilatçısı kimi çıxış edəcəyi vurğulanıb: "ATACH iqlim və sağlamlıq məsələləri üzrə milli və beynəlxalq əməkdaşlıq üçün əsas qlobal platforma rolunu oynayır. Alyans Şarm əl-Şeyx Uyğunlaşma Gündəliyinə (COP27), COP28-in Sağlamlıq Bəyannaməsi və 77-ci Ümumdünya Səhiyyə Assambleyasında qəbul edilən İqlim Dəyişikliyi və Sağlamlıq üzrə Qətnamə də daxil olmaqla, COP26 Səhiyyə Gündəliyinin nailiyyətlərinə və sonrakı təşəbbüslərə əsaslanır.

Nazirin sözlərinə görə, Azərbaycan COP29-a ev sahibliyi edərək yaşıl enerjiyə keçidə sadiqdir: "İqlim dəyişikliyinin azaldılmasının maliyyələşdirilməsi COP29 müzakirələrinin, o cümlədən sağlamlığa təsirlərin maliyyələşdirilməsinin təməl daşı olaraq qalır. Hesab edirik ki, iqlim və sağlamlıq gündəmlərinin maliyyələşdirilməsi bütün müvafiq maraqlı tərəfləri cəlb etməklə, növbəti səviyyəyə qaldırılmalıdır".

"Hazırda ATACH 90-dan çox ölkə və ərazini, həmçinin mühüm missiyada birgə çalışan 70-dən çox tərəfdaşı birləşdirir. Bundan əlavə, ATACH iqlim dəyişikliyi və sağlamlıqla bağlı tədbirləri gücləndirmək üçün mühüm qlobal əməkdaşlıq mexanizmi təqdim edir. Eyni zamanda, Alyans iqlim dəyişikliklərinə davamlı və aşağıkarbonlu səhiyyə sistemlərinin qurulmasına yönəlib. ATACH-ın həmtəşkilatçısı kimi Azərbaycan Respublikası Alyans vasitəsilə iqlim və sağlamlıqla bağlı fəaliyyət üçün qlobal təkan yaratmaq məqsədilə keçmiş və gələcək COP prezidentləri, eləcə də bütün ATACH üzvləri ilə birgə işləməyə sadiqdir. Biz bütün COP29 iştirakçı ölkələrini ATACH-a qoşulmağa dəvət edirik. Bununla onlar iqlim tədbirləri vasitəsilə sağlamlığı qorumaq və yaxşılaşdırmaq üçün kollektiv səylərə töhfə verə və bundan faydalana bilərlər", - deyə Azərbaycan Respublikasının səhiyyə naziri fikrini tamamlayıb.

Tədbirdə çıxış edən ÜST-nin Qərbi Sakit Okean üzrə Regional Direktoru, doktor Saiya Mau Piukala, Böyük Britaniyanın Xarici İşlər, Millətlər Birliyi və İnkişaf Nazirliyinin (FCDO) adaptasiya, təbiət və xarici təsirlərə davamlılıq Departamentinin rəhbəri Cerard Hou, Braziliya Səhiyyə Nazirliyinin Səhiyyə Nəzarəti Katibi Etel Masiel, Misirin səhiyyə və əhali nazirinin institusional islahatlar üzrə köməkçisi doktor Hossam Abdel Qaffar və başqaları BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının qlobal ictimaiyyət üçün bir araya gələrək, praktiki həlləri müəyyən etməkdə mühüm fürsət olduğunu qeyd ediblər.

İqlim dəyişikliyinin təhlükəli xəstəliklərin yayılmasına, səhiyyə sistemlərinin yüklənməsinə və maliyyə dayanıqlılığına xələl gətirməsinə səbəb olduğu vurğulanıb. Bu cür böhranlar nəticəsində ən həssas əhali təbəqələri əziyyət çəkir. Bu baxımdan, innovasiya, texnologiya və tədqiqatları stimullaşdırmaq üçün böhrana birgə reaksiyadan yaranan imkanlardan istifadə etməyin vacibliyi qeyd olunub. Bu tədbirlər daha sağlam gələcəyə və daha möhkəm sistemlərə gətirib çıxaracaq.

# Səhiyyə Nazirliyinin Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi Xankəndidə səyyar müayinələr keçirib

**Səhiyyə Nazirliyi işğaldan azad olunan ərazilərdə "Böyük Qayıdış" Proqramı çərçivəsində vətəndaşlar arasında müxtəlif istiqamətlərdə tibbi müayinələrin, eyni zamanda, sağlamlığın təşviqi üzrə maarifləndirici aksiyaların keçirilməsini davam etdirir.**





Bu dəfə nazirliyin Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin Səyyar Klinikası tərəfindən Xankəndi şəhərində oftalmoloji tibbi müayinələr keçirilib.

İkigünlük səyyar oftalmoloji müayinələrin başlıca məqsədi operativ şəkildə vətəndaşların müayinəsi, görmə qabiliyyətinin zəifləməsinin qarşısının alınması, görmə patologiyasının erkən diaqnostikası və müalicələrin təyin olunmasıdır.

Tibbi aksiyada 200-ə yaxın sakin oftalmoloji müayinədən keçib.

Müayinələr nəticəsində vətəndaşlarda quru göz sindromu, allergik konyunktivit, refraksiya patologiyası, miopik astiqmatizm və digər xəstəliklər aşkarlanıb. Eyni zamanda, göz xəstəlikləri ilə bağlı ümumi monitorinqlər aparılıb və əldə edilən nəticələr müzakirə olunub. Ciddi problemlərlə üzləşən və çətin əməliyyat tələb olunan pasiyentlərin Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinə gəlmələrinə şərait yaradılıb.

Qeyd edək ki, Səhiyyə Nazirliyi işğaldan azad olunan digər ərazilərdə də davamlı olaraq tibbi müayinələrin və maarifləndirici tədbirlərin keçirilməsini nəzərdə tutur.

# Xankəndi əhalisi üçün kardioloji müayinələr və Qarabağ Universitetində maarifləndirmə aksiyası təşkil edilib









**Səhiyyə Nazirliyinin işğaldan azad olunan ərazilərdə "Böyük Qayıdış" Proqramı çərçivəsində əhali arasında keçirdiyi kompleks tibbi müayinələr, eyni zamanda, sağlamlığın təşviqi ilə bağlı maarifləndirici aksiyalar çərçivəsində növbəti tədbir Xankəndi şəhərində baş tutub. Səhiyyə Nazirliyi Akademik C.Abdullayev adına Elmi Tədqiqat Kardiologiya İnstitutunun (ETKİ) tibb heyəti tərəfindən Xankəndi sakinləri üçün kardioloji müayinələr təşkil edilib.**

Əsas məqsədi vətəndaşlar arasında ürək-damar sistemi xəstəliklərinin qarşısının alınması, miokard infarktı riskinin erkən aşkarlanması və müalicələrin təyin edilməsi olan aksiya zamanı ETKİ-nin kardioloq, nevropatoloq, endokrinoloq, tibb bacısı və laboratoriya üzrə mütəxəssislərindən ibarət briqadası tərəfindən əhaliyə tibbi baxış aparılıb, ExoKQ, EKQ müayinələri keçirilib. Eyni zamanda, qanda şəkər, ekspres üsul ilə xolesterinin səviyyəsi təyin olunub.

Aksiya zamanı 150-dən artıq vətəndaş müayinələrdən keçirilib.

Tədbirin davamı olaraq ETKİ tərəfindən Xankəndi şəhərində yerləşən Qarabağ Universitetində "Urəyinizi qoruyun" layihəsi çərçivəsində maarifləndirmə aksiyası keçirilib.

İnstitutun direktoru Gülnaz Dadaşova ətraflı təqdimatla çıxış edərək, müasir dövrdə sağlam həyat tərzinin təbliği və ürək xəstəliklərinin artması baxımından layihənin əhəmiyyətindən danışıb. Həmçinin, Kardiologiya İnstitutunun aparıcı mütəxəssisləri tərəfindən "Sağlam genofonda addım ataq" mövsuzunda təqdimatlar edilib.

Aksiya zamanı ürək-damar xəstəliklərinə qarşı mübarizə aparmaq məqsədilə Qarabağ Universitetinin tələbələri üçün sağlam həyat tərzi və zərərli vərdişlərdən qorunma haqqında video-çarxlar nümayiş olunub. Eyni zamanda, tədbir çərçivəsində arzu edənlərin boy və çəkisi, arterial təzyiqi və nəbzi ölçülüb.

Sonra tələbələri maraqlandıran suallar cavablandırılıb və aksiya iştirakçılarına məlumatlandırıcı bukletlər paylanılıb.

## AŞAĞIDAKI TİBB MÜƏSSİSƏLƏRİ GÖSTƏRİLƏN VAKANT YERLƏRƏ MÜSABİQƏ ELAN EDİR

**Xaçmaz Rayon Gigiyena və Epidemiologiya Mərkəzi**

Sanitar-feldşer - 1.0

*Ünvan: N.Nərimanov küç., 7*
*Əlaqə: (02332)5-36-25*

**"Elmi-Tədqiqat Pediatriya İnstitutu" PHŞ**

Tibb bacısı (qardaşı) - 6.0
Anestezist - 2.0

*Ünvan: Bəsti Bağırova küç., 17*
*Əlaqə telefonu: (+99412) 594 79 06*

**"Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutu" PHŞ**

Tibb bacısı (qardaşı) - 5.0
Rentgen-texnik - 2.0
Feldşer-laborant - 2.0
Əczaçı - 1.0

*Ünvan: E.Süleymanov küç. 2514*
*Əlaqə telefonu: (+99412) 4214498*

**Nizami Rayon Gigiyena və Epidemiologiya Mərkəzi**

Feldşer-laborant- 1.0

*Ünvan Qara Qarayev prospekti 74*
*Əlaqə (012) 323-73-38*

**"Respublika Narkoloji Mərkəzi" PHŞ**

Tibb bacısı (qardaşı) - 3.0

*Ünvan: Maştağa qəs, Axund Şeyx Hüseyn küç., 71*
*Əlaqə telefonu: 012 558 75 17*

**2 nömrəli Klinik Psixiatriya Xəstəxanası**

Tibb bacısı (qardaşı) - 2.0

*Ünvan: Süleyman Rüstəm küç., 40*
*Əlaqə telefonu: (012) 440 42 21*

Baş redaktor:
N.MƏCİDOVA
Baş redaktorun müavini:
S.NƏBİYEVA
Qəzet 1991-ci il yanvarın 5-dən nəşr olunur.
Təsisçi:
Azərbaycan Respublikası Səhiyyə Nazirliyi
*Müəlliflərin fikirləri qəzetin mövqeyi ilə üst-üstə düşməyə bilər. Redaksiyaya gələn yazılar geri qaytarılmır, onlara rəy verilmir.*
Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyata alınmışdır. Qeydiyyat nömrəsi: B92
Ünvan:
Mirəsədulla Mirqasımov küç., 1. Səhiyyə Nazirliyi, 2-ci mərtəbə, 249-cu otaq
E-mail:
tibbqazeti@health.gov.az
Tel./faks: (012) 596-06-61
Redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və «CBS polygraphic production» mətbəəsində çap olunmuşdur.
İndeks: 1065
Tiraj: 19000


Let's
beat
diabetes
together
Normoglip
Glimepiride USP 2/3/4 mg
2/3/4
NORMOGLIP M
Glimepiride 2 mg and Metformin Hydrochloride 500 mg Tablets
LET'S
BEAT
DIABETES
Yeniliklər...
Normalar...
BİZİMLƏ!
Medeor


AVROMED
Mocom M10
Stomatoloji qurğu
Mocom
firması istehsalı olan
müxtəlif konfiqurasiyalı
stomatoloji qurğular
Mocom Firması avadanlıqlarının
Respublikamızda yeganə
distribütoru Avromed Dentaldır
@avromed_company
@avromedcompany
avromed.az
info@avromed.az